UOT 94; UOT 32:93/94

ŞƏFƏQ MUSTAFAYEVA
ADU, Şərq ölkələri üzrə regionşünaslıq kafedrası
shefeg87@mail.ru

XIX-XX ƏSRİN ƏVƏLLƏRİNDƏ FRANSIZ GEOSİYASƏTİ VƏ CƏNUBİ QAFQAZ

DOI: https://doi.org/10.36719/2708-065X/111/60-64

Bu məqalədə XIX–XX əsrin əvəllərində Fransız geosiyasət məktəbinin nəzəriyyələri və onların Cənubi Qafqaz kontekstində tətbiqi araşdırılır. Vidal dö la Blaşın possibilizm nəzəriyyəsi ilə coğrafi imkanların insan fəaliyyəti və dövlət siyasəti ilə birləşərək nəticəni müəyyən etdiyini göstərmişdir. Jak Ansel imperializmə qarşı çıxaraq dövlətlər arasında sülh və insan hüquqlarının qorunmasını vurğulamış, Albert Demangeon isə dövlətlərin inteqrasiyasının regional stabilliyi təmin edə biləcəyini irəli sürmüşdür. Bu nəzəriyyələr Azərbaycanın enerji və tranzit layihələrinin regional və beynəlxalq əhəmiyyətini izah etməyə imkan verir və Cənubi Qafqazda dövlətlərinin fərqli siyasi kurs seçimlərinin nəticələrini izah edir.

Açar sözlər: Elize Reklyu, Vidal dö la Blaş, possiblizim, Cənubi Qafqaz.

Giriş. Tarix boyu fransız mütəfəkkirləri, filosofları tərəfindən dövlətlərin strateji mövqeyi, idarəedilməsi, insanların, xalqların formalaşması və bu proseslərə təsir göstərən faktorlar haqqında müxtəlif nəzəriyyələr irəli sürməklə dünya elminə böyük töhfələr bəxş etmişlər. Bu geosiyasi nəzəriyyələrdə irəli sürülən müddəa və tezislər müasir dövrdə aktuallığını saxlayaraq ayrı-ayrı regionların geosiyasi və geoiqtisadi həyatında öz əksini tapmışdır. Bu baxımdan fransız nəzəriyyəçilərinin irəli sürdükləri konsepsiyaların öyrənilməsi, onların fikirlərinin dünyanın ayrı-ayrı regionlarında, eləcə də Cənubi Qafqaz dövlətlərində öz təcəssümünü tapması mühüm əhəmiyyət kəsb edir.

Tarixi ədəbiyyatda mövcud olan ən qədim geosiyasi nəzəriyyə antik yunan filosofu Aristotelin irəli sürdüyü coğrafi determinizmdir. Coğrafi determinizm geosiyasətin və geosiyasi prosesləri dərketmənin ən qədim nümunəsi hesab olunur.

Yeni dövrdə Avropada ilk dəfə bu nəzəriyyəyə fransız alimi, maarifçi və hüquqşünası Jan Boden (1530-1596) özünün "Dövlət haqqında altı kitab" adlı əsərində müraciət etmişdir. Böyük coğrafi kəşflər dövründə fransız alimi J.Boden (1530-1596) özünün "Dövlət haqqında altı kitab" (1577) əsərində dövlət quruluşundakı fərqlərin üç əsas səbəbini göstərirdi: Allahın iradəsi, insanın özbaşınalığı, təbiətin təsiri [7, s.79]. J.Boden "Tarixin asan öyrənilməsinin metodu", "Dövlət haqqında altı kitab" adlı əsərlərində tarixi proseslərin gedişini, eyni zamanda, müxtəlif coğrafi və iqlim şərtlərində dövlət institutlarının yaranmasını nəzərdən keçirmişdir. Boden siyasi fikir tarixində ilk dəfə suverenliyi dövlətin ən vacib əlaməti kimi dəyərləndirmişdir... Onun fikrincə suverenlik və ya qanunları yaradıb həyata keçirmək hüququ dövlətə məxsusdur. Suverenlik qanunların adil olub-olmamasından deyil, onların gücündən və yaradılması imkanlarından asılı idi. Boden suverenliyin beş fərqli cəhədini ayırırdı. Bunlardan birincisi, istisnasız olaraq hər bir təbəə və dövlət idarəsinə ünvanlanmış qanunların çıxarılmasıdır. İkincisi- hərb və sülh məsələlərinin həlli. Üçüncü- vəzifəli şəxslərin təyin olunması. Dördüncüsü- ali məhkəmə olaraq sonuncu instansiya məhkəməsinin fəaliyyəti. Beşincisi isə əhv etməkdir. Bodenin görüşləri siyasi və hüquqi elmlərin inkişafına ciddi təsir göstərmişdir [2, s.66].

Coğrafi determinizm ideyaları XVIII-XIX əsrlərdə daha da inkişaf etdi. Bu ideyalar Fransada daha çox məşhur idi. Fransız mütəfəkkiri Şarl Lui Monteskye (1689-1755) coğrafi aləm ilə siyasət və qanunvericiliyin qarşılıqlı əlaqəsi konsepsiyasını irəli sürmüşdür [6, s.86-87]. Avropa geosiyasi elmində ilk dəfə Monteskye dövlətin quruluşu və idarəçilik formasını təbii coğrafi mühitlə bağlamış, iqlim şəraitinin dövlət və cəmiyyət həyatına təsiri məsələlərini araşdırmışdır [5, s.350]. Fransız maarifçiliyinin digər tanınmış nümayəndəsi Jan Jak Russo (1712-1778) coğrafi determinizm ideyaları mövqeyindən çıxış edirdi. Russonun cəmiyyətin inkişafında mədəniyyətin roluna dair fikirləri də maraqlı idi. Russoya görə mədəniyyətin inkişafı cəmiyyətin həyatında mənfi faktordur. Çünki Russonun fikrincə mədəniyyət insanları birləşdirmir, əksinə onları ayırırdı [8].

Beləliklə, maarifçilik əsri Qərbdə geosiyasi ideyaların inkişafına təsir göstərdi. XVIII əsr fransız maarifçiləri və materialistlərinin – Monteskye, Didro, Russo, D'Alamber, Lametrinin əsərlərində ictimai elmlərdə coğrafi determinizm konsepsiyası formalaşdı. Nəticədə geosiyasət elm kimi meydana gəldi.

Əsas. XIX əsrdə Fransada geosiyasi ideyalar inkişaf etdi. Coğrafiyaçı və sosioloq Jan Jak Elize Reklyu coğrafi determinizm ideyalarını inkişaf etdirərək "Ümumdünya coğrafiyası" adlı kitablar seriyasını nəşr etdirdi. E. Reklyu əsərlərində insan, Yer və kosmos arasında harmoniyanın olması ideyasına əsaslanan "fiziki coğrafiya" konsepsiyasını yaratdı. E. Reklyuya görə tarixi inkişaf prosesində insan ilə təbiət arasında münasibətlər dəyişir. Müasir adamlar, sənaye sivilizasiyasının yaradıcıları gücü gözəllikdən üstün tuturlar və Yeri öz tələblərinə və təsəvvürlərinə uyğun şəkilə salırlar. Nəticədə insan və təbiətin harmoniyası pozulur, bəşəriyyətin həyatı üçün ciddi problemlər yaranır. Reklyu hesab edirdi ki, yenidən gözəlliyi Yerə qaytarmaq, onu sevgi prinsipləri ilə idarə etmək lazımdır. Bu, yalnız tərbiyə yolu ilə mümkündür. İnsanların həmrəyliyi iqtisadi və sosial bərabərsizliyə son qoymağın yeganə yoludur [4, s.166-167].

Reklyu coğrafi deterministi nəzəriyyələrini tənqid edirdi. Elize Reklyunun insan, təbiət və məkan münasibətlərinə dair ideyaları müasir dövrdə də öz aktuallığını qorumaqdadır. Xüsusilə, 2020-ci il II Qarabağ müharibəsindən sonra Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur ərazilərində başlatdığı genişmiqyaslı yenidənqurma fəaliyyəti bu nəzəri yanaşmalarla səsləşir. Reklyunun fikrincə, insanın təbiətlə harmoniyada yaşaması cəmiyyətin inkişafının əsas şərtidir; məkan yalnız iqtisadi məqsədlər üçün deyil, həm də ekoloji və mənəvi dəyərlərin qorunması üçün istifadə edilməlidir. Azərbaycan tərəfindən azad edilmiş Ermənilərin işğalından nəticəsində viran edilmiş, Azərbaycan tərəfindən azad edildikdən sonra həmin ərazidə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi, yaşıl enerji zonası elan edilməsi, minalardan təmizlənmə və ekosistemin bərpası kimi layihələr məkanın insan tərəfindən yalnız istismar olunmaması, əksinə, harmonik yaşayış mühiti kimi yenidən qurulması ideyasına uyğun gəlir. Reklyunun vurğuladığı kimi, təbiətin bərpası və insanın məkana sülh, sevgi və həmrəylik yanaşması sosial rifahın artması üçün həlledici amildir. Bu baxımdan, Qarabağda həyata keçirilən urbanizasiya deyil, planlı və ekoloji yönümlü reabilitasiya modeli Reklyunun "gözəlliyin Yerə qaytarılması" tezisinin müasir kontekstdə reallaşma nümunəsidir. Regionun bərpasında məqsəd yalnız infrastruktur yaratmaq yox, həm də insanların təhlükəsiz şəkildə geri dönüşünü təmin etmək, onların sosial-iqtisadi və mədəni həyatını yenidən canlandırmaqdır. Beləliklə, Reklyunun insan–təbiət harmoniyasına əsaslanan konsepsiyası Azərbaycan tərəfindən Qarabağda həyata keçirilən yenidənqurma siyasətində praktik təzahürünü tapmışdır.

XX əsrin əvvəllərində fransız sosioloqu və filosofu Emil Dürkheymə (1858-1917) görə hər bir cəmiyyət hamı üçün əhəmiyyətli olan kollektiv təsəvvürlərlə (hüquq, əxlaq, din, hisslər, vərdişlər) iş görür. İctimai inkişafı Dürkheym üç amilə - əhalinin sıxlığı, rabitə yollarının inkişafı, kollektiv şüurla izah edirdi. Dürkheym cəmiyyətin islahatlar vasitəsilə dəyişdirilməsinin tərəfdarı olmuşdur [3, s.81].

Emil Dürkheymə görə cəmiyyət təbii şəkildə deyil, islahatlar və məqsədyönlü sosial təşkilatlanma yolu ilə dəyişir. Yəni, sosial nizamın qorunması üçün məqsədli dövlət siyasəti, institutlaşma və sosial həmrəyliyin möhkəmləndirilməsi vacibdir.

2020-ci il Vətən müharibəsindən sonra Azərbaycanın işğaldan azad edilən ərazilərə qayıdış strategiyası (Böyük Qayıdış) yalnız fiziki-rekonstruksiya deyil, həm də kollektiv şüurun bərpası, milli identiklik və sosial birliyin gücləndirilməsi ilə bağlıdır. Zəngilan, Füzuli və Ağalıda "ağıllı kənd" və "ağıllı şəhər" modellərinin tətbiqi rabitə yollarının və kommunikasiya şəbəkələrinin inkişafı ilə Dürkheym konsepsiyasının sosial inteqrasiya komponentinə uyğundur.

Fransız mütəfəkkiri Reymon Aron (1905-1983) bildirirdi ki, neodürkheymizm mənəviyyatın insan zəkaları üzərində itirdiyi üstünlüyünü bərpa etmək ümüdindədir. R.Aron beynəlxalq münasibətləri siyasi realizm ruhunda – təbii və ya vətəndaşlıqdan əvvəlki vəziyyət kimi nəzərdən keçirirdi. O bildirirdi ki, sənaye sivilizasiyası və nüvə silahı dövründə işğalçılıq müharibələri həm xeyirsiz, həm də həddən artıq risklidir. Lakin bu o demək deyildir ki, beynəlxalq münasibətlərin əsas xüsusiyyəti – iştirakçıların zor tətbiq etməsinin qanuniliyindən və ya qanuniləşdirilməsindən ibarət olan əsas xüsusiyyəti kökündən dəyişmişdir. Buna görə də Aron qeyd edirdi ki, sülhün bərqərar olması mümkün deyil, lakin müharibə də ağlasığmazdır. R.Arona görə beynəlxalq münasibətlərin xarakteri və vəziyyəti

əsasən dövlət rəhbərlərindən, "hökmdar"lardan asılıdır. "Onlara yalnız bunu məsləhət görmək və buna ümid etmək olar ki, onlar dəlilik etməyəcəklər" [6, s.70].

1991-ci ildə SSRİ dağıldıqdan sonra ermənilər Azərbaycana qarşı ərazi iddiaları irəli sürməyə və təcavüzkar müharibəyə başladıqları kimi, Gürcüstana qarşı da ərazi iddiaları irəli sürməkdə davam etdilər. Bu, özünü açıq şəkildə istər ermənilərin kompakt yaşadıqları Samtsxe-Cavaxeti bölgəsində Ermənistandan dəstəklənən ərazi iddiaları və separatizm cəhdlərində, istərsə də ermənilərin bütün dünyada bu və digər bölgələrə qarşı ərazi iddiaları məsələlərini müxtəlif tribunalardan səsləndirməsində göstərmişdi. 2009-cu ildə Ermənistanın 14 qeyri-hökumət təşkilatı Sarkisyana və xarici işlər nazirinə müaricət edərək Samtsxe-Cavaxetiya ilə yanaşı Borçalı ərazisindən axan Xram çayından cənubda yerləşən torpaqların Ermənistana birləşdirilməsinə çağırdı [1, s.257].

Nəticədə R.Aronun nəzəri olaraq müəyyən etdii kimi, sosializm sisteminin süqutundan sonra SSRİ özündən sonra Cənubi Qafqazda ərazi və etnik zəmində münaqişələri miras qoydu.

XIX əsrin sonu - XX əsrin əvvəllərində Fransada yaranmış geosiyasi məktəb "insan coğrafiyası" adlanırdı. Bu məktəbin əsası Vidal de la Blaş tərəfindən qoyulmuş və J. Bryun ilə davam etmişdir. "İnsan coğrafiyası"na aid olan əsərlərdə bu nəzəriyyəçilərin istifadə etdikləri metod possibilizm adlanırdı. Bu metoda görə təbiət xalqların tarixi və sosial inkişafına təsir göstərir. Nəticədə dövlətlərin ictimai – iqtisadi təşkilatları yaranır. Lakin imkanları reallığa çevirməyi yalnız insan bacarır [6, s.100].

Bu dövrdə Fransa və Almaniya geosiyasətçiləri arasında fikir ayrılıqları var idi. Məsələn, Blaşa görə dünya dövlətinə gedən yol kommunikasiyalardan keçirdisə, Ratselin fikrincə bu, ərazi ekspansiyası, yəni müharibə və ticarət vasitəsilə mümkün idi.

Blaş alman geosiyasətçisi Ratselin dövlətin inkişafında məkan faktorunun rol oynaması fikrini tənqid edirdi. Onun coğrafi tədqiqatlarının mərkəzində məkan, dövlətin coğrafi vəziyyəti deyil, insan dayanırdı. Blaş insanı coğrafi faktor kimi tədqiq edirdi. Blaşa görə dünya geosiyasi məkanının formalaşmasında kommunikasiyalar böyük rol oynayırdı [6, s.100].

Mütəfəkkir yazırdı ki, hər bir xalq ətraf mühitdən həyat tərzinə, məqsəd və təyinatına görə istifadə edir. Blaş Ratseldən fərqli olaraq sərt coğrafi determinizm ideyasından imtina edərək birinci yerə coğrafi və ərazi amillərini deyil, insanın təşəbbüsü və azadlığını qoyurdu. Ümumiyyətlə, Blaş və digər fransız nəzəriyyəçilərinin diqqət mərkəzində ideal insan amili, humanist, liberal xalqlararası münasibətlər dururdu [4, s.169].

Bir sözlə, Vidal de la Blanşın possibilizm ideyasının məğzi coğrafi mövqenin istiqamət verir, amma taleni müəyyən etmir, yəni cəmiyyət öz yolunu seçir. Cənubi Qafqaz regionu geosiyasi baxımdan tranzit bölgədir - amma regionun gələcəyi bölgə dövlətlərin qərarlarından və siyasətlərindən asılıdır.

Azərbaycan dövləti Bakı–Tbilisi–Ceyhan, TAP, TANAP, İğdır–Naxçıvan kimi enerji layihələri və Bakı–Tbilisi–Qars kimi tranzit layihələri ilə regionun geosiyasi əhəmiyyətini artırmış, onu enerji və nəqliyyat dəhlizlərinin kəsişmə nöqtəsinə çevirmişdir. Bu layihələr Azərbaycanın enerji resurslarını dünya bazarlarına çıxarmaqla yanaşı, ölkəni beynəlxalq enerji təhlükəsizliyinin və qlobal logistikanın mühüm oyunçusuna çevirmiş, Cənubi Qafqazda Azərbaycanın rolunu gücləndirmişdir. Azərbaycanın enerji və tranzit layihələri həm coğrafi imkanlardan (Vidal dö la Blanş), həm də güc balansı və strateji maraqlardan (Raymond Aron) irəli gələn nəticələrin sintezidir.

Gürcüstan Qara dənizə çıxışından istifadə edərək NATO və Aİ-yə yönəlib. Bu da Vidalın "coğrafiya yollar açır, cəmiyyət seçir" tezisinə uyğun gəlir.

Ermənistan eyni regionda yerləşsə də, Ermənistan hakimiyyətinin bölgədə gedən inteqrasiya proseslərinə qoşulmaq əvəzinə qonşu dövlətlərə təcavüzkar siyasəti nəticəsində regional iqtisadi proseslərdən kənar qalıb. Fransız geosiyasətçisi Vidal dö la Blaşın fikri təsdiqlənir: coğrafiya eyni ola bilər, amma seçimlərə görə siyasi nəticələr fərqlənir.

Bütün bu çətinliklərə baxmayaraq, Ermənistan-Azərbaycan münaqişəsinin tarixində ümidverici bir dönüş nöqtəsindəyik. Azərbaycan ərazi bütövlüyünü tam bərpa edib. Ermənistanın qanunsuz silahlı birləşmələri Azərbaycanın suveren ərazisindən geri çəkilib. Həm Ermənistan, həm də Azərbaycan otuz ildən artıqdır ki, ilk dəfə olaraq ciddi birbaşa danışıqlara başlayıb və Cənubi Qafqazda uzunmüddətli sabitliyin təməlini qoya biləcək tarixi sülh müqaviləsinin imzalanmasına indiyədək olduğundan daha yaxındırlar.

Vidal dö la Blşın ideyalarını onun şagirdləri Jak Ansel (1882–1943) və Albert Demanjon (1872–

1940) inkişaf etdirmişdir. Jak Ansel ekspansionizmin və imperializmin qəti əleyhdarı idi. O, insan hüquq və azadlıqlarının, dövlətlər arasında sülhün və insani əlaqələrin tərəfdarı kimi çıxış edirdi.

Albert Demanjon isə Avropanın Birinci Dünya Müharibəsindən sonra beynəlxalq işlərdə rolunun azalmasından narahat idi. Onun fikrincə, yeni dövlətlərin yaranması və Avropada dəyişən geosiyasi vəziyyət, avtarkiyaya və münaqişələrə aparan geriyə addım idi. Demangeon hesab edirdi ki, dövlətlərin birləşməsi və inteqrasiyası Avropanın süqutunun qarşısını ala bilər [6, s.140–142].

Göründüyü kimi, Fransız "insan coğrafiyası" məktəbinin nümayəndələri dövlətlər və xalqlar arasında liberal münasibətləri, sərhədlərin toxunulmazlığını və beynəlxalq sülhü müdafiə edirdilər. Onlar beynəlxalq təhlükəsizlik problemlərinin həllini ümumi maraqlar naminə fəaliyyət göstərən dövlətlər birliyində görürdülər.

Nəticə. Beləliklə, tədqiqat göstərir ki, fransız geosiyasi nəzəfriyyəçilərinin irəli sürdüyü milli maraqlarla bağlı müddəalar, fikir və ideyalar dünyada, eləcə də Cənubi Qafqaz dövlətlərində özünü bu və ya digər şəkildə göstərmişdir. Cənubi Qafqaz unikal əhəmiyyətli geosiyasi mövqeyə sahibdir. Bu ölkələrin milli maraqlarının toqquşması münaqişələrə və böhranlara yol açmışdır. Bununla yanaşı, Cənubi Qafqaz enerji resurslarının Avropaya çatdırılmasında xüsusi yerə malikdir. Ümumiyyətlə, geosiyasi reallıq budur ki, regionda unikal təhlükəsizlik sistemi mövcud deyildir.

Ümumiyyətlə, geosiyasi cəhətdən mövzununun spesiflikliyini təhlil etmək üçün iki əsas amili müqayisə etmək lazmdır. Fundamental meyillər - ölkənin, regionun coğrafı mövqeyi, məkandan və zamandan aslı olaraq formalaşan tarixi və müasir dəyişənlər - baş verən cari proseslərin ölkəyə, regiona təsiri. Cənubi Qafqaz regionu üçün geosiyasi riskləri siyasi, sosial-iqtisadi, sosial-mədəni qruplarda birləşdirə bilərik. Cənubi Qafqazın region dövlətlərini geosiyasi cəhətdən qiymətləndirsək Ermənistanı digər region ölkələrinə nisbətən əlverişsiz, Gürcüstanın "kövrək", Azərbaycanın isə ruhlandırıcı gələcəyə sahib dövlət kimi təqdim etməliyik. Şübhəsiz ki, Cənubi Qafqazda Ermənistan iki qonşu ölkə ilə müqayisədə geosiyasi perspektiv baxımından ən aşağı pillədədir.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) / məqalələr toplusu / Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi. Bakı: Poliart MMC, 2017, 904 s. http://web2.anl.az:81/read/page.php?zoom=0&bibid=568623&pno=130 və ya https://www.repk.az/uploads/books/0.36.pdf [28.10.2025].
2. Qasımlı, M. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003) / M.Qasımlı. I hissə, – Bakı: Mütərcim, –2015. –səh.648 və səh.664.
3. Məmmədov, N. Geosiyasətə giriş / N.Məmmədov. 2 cilddə. – Bakı: "Azərbaycan" nəşriyyatı, – 2011, I cild, –576 s.; II cild, – 416 s.
4. Желтов, М.В. Геополитика мирового порядка.монография / М.В.Желтов –М: Флинта, – 2014, –1302 стр.
5. Монтескье, Ш. Избраннные произведения / Ш.Монтескье М.: –1995, Госполитиздат, – 803с.
6. Мухаев, Р.Т. Геополитика / Р.Т.Мухаев. –Москва.: ЮНИТИ – ДАНА, –2007, – 623 с.
7. Пирожник, И.И. Геополитика в современном мире / И.И.Пирожник. –Минск: «ТетраСистемс», –2008, – 272 с.
8. Просветительские и идеалистические концепции культуры // http://www.rulit.me/books/kulturologiya-uchebnik-read-364426-11.html [28.10.2025].

ШЕФЕГ МУСТАФАЕВА
АУЯ, Кафедра регионоведения стран Востока

ФРАНЦУЗСКАЯ ГЕОПОЛИТИКА В XIX И НАЧАЛЕ XX ВЕКОВ И ЮЖНЫЙ КАВКАЗ

Французская геополитическая школа XIX–XX веков подчёркивала, что географическое положение государств формирует их политику и возможности развития, но что география сама

по себе не определяет результат (Видаль де ла Блаш). Жак Ансель выступал против империализма и считал важным защиту мира, прав человека и свобод между государствами. Альбер Деманжон утверждал, что интеграция государств в Европу может обеспечить региональную стабильность. Эти идеи находят отражение в энергетических и транзитных проектах Азербайджана на Южном Кавказе, поскольку страна сочетает свои географические возможности с активной политикой и становится региональным центром силы. Интеграция Грузии в Запад и нынешнее процветание Армении как регионального государства подтверждают принцип поссибилизма французской геополитики.

Ключевые слова: Элиза Реклю, Видаль де ла Блаш, возможно, Южный Кавказ.

SHEFEG MUSTAFAYEVA
AUL, Department of Regional Studies of Eastern Countries

FRENCH GEOPOLITICS IN THE 19TH AND EARLY 20TH CENTURIES AND SOUTH CAUCASUS

The French geopolitics school of the 19th–20th centuries emphasized that the geographical position of states shapes their policy and development opportunities, but that geography alone does not determine the outcome (Vidal de la Blache). Jacques Ansel opposed imperialism and considered the protection of peace, human rights, and freedoms among states to be important. Albert Demangeon stated that the integration of states in Europe could ensure regional stability. These ideas are reflected in Azerbaijan's energy and transit projects in the South Caucasus, as the country combines its geographical opportunities with an active policy and becomes a regional power center. The integration of Georgia into the West and the current prosperity of Armenia as a regional state confirm the principle of possibilism of French geopolitics.

Keywords: Elise Reclue, Vidal de la Blache, possible, South Caucasus.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 28 oktyabr 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. Məmmədağa Baxışov, t.e.d. Qabil Əliyev.